# "Şərq xalqlarının I qurultayı – Bakı, 1920. Şərq dünyası 100 il əvvəl və bu gün" mövzusunda elmi konfrans keçiriləcək

Bu il sentyabrın 1-də Şərq xalqlarının I Bakı qurultayının keçirilməsinin 100 ili tamam oldu. Həmin tədbir - Yaxın və Orta Şərqdə imperializmdən qurtuluş mübarizəsi aparan müsəlman xalqlarının I qurultayı düz 100 il öncə - 1920-ci il 1-7 sentyabr tarixlərində Bakıda keçirilmişdi. Qurultay Şərq xalqlarının milli-azadlıq hərəkatının yüksəlişi istiqamətində atılmış mühüm addım idi. İdeya və təşkilatçılığın dövrün Azərbaycan ictimai-siyasi elitası tərəfindən irəli sürülməsi respublikamızın bu prosesdə oynadığı əhəmiyyətli rolun göstəricisi idi. Yubileylə əlaqədar olaraq, Azərbaycan Milli Elmlər Akademiyasının İctimai və Humanitar Elmlər bölmələrinin və akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə "Şərq xalqlarının I qurultayı – Bakı, 1920. Şərq dünyası 100 il əvvəl və bu gün" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək. Konfransın keçirilməsinin dəqiq tarixi xüsusi karantin rejimindən asılı olaraq müəyyən ediləcək.

Konfransa Azərbaycan, Türkiyə, Misir və Hollandiyadan ümumilikdə 60-a yaxın iştirakçının qatılacağı gözlənilir.

Konfransa tezislər iki istiqamətdə qəbul edilib. Birinci istiqamət "Şərq dünyası 100 il əvvəl. Tarixi baxış" adlanır. Bu istiqamətdə tezislərin qəbulu üçün müəyyən edilmiş mövzular Şərq xalqlarının Bakı qurultayı Sovet Rusiyası və Kommunist İnternasionalının Şərq siyasətinin tərkib hissəsi və göstəricisi kimi; 1914-1920-ci illər Şərq ölkələrində gedən inqilabi proseslər Kominternin Şərq siyasətini şərtləndirən amil kimi; Şərq xalqlarının I qurultayı. Sovet Rusiyası və Kominternin Şərq siyasətində Azərbaycanın yeri; Azərbaycan SSR Şərq xalqlarının inqilabi mübarizəsi üçün ilk müsəlman sosialist respublikası nümunəsi kimi; Azərbaycanın Sovet-kommunist rəhbərliyinin Şərq xalqlarının Bakı qurultayında təmsilçiliyi; Nəriman Nərimanov və Şərq xalqlarının I qurultayı; Şərq xalqlarının I qurultayı Azərbaycan və Türküstanın milli qüvvələrinin gözü ilə; Şərq xalqlarının I qurultayı və Qafqaz (Şimali və Cənubi) respublikaları; Şərq xalqlarının I qurultayı və Rusiyanın müsəlman xalqları; Şərq xalqlarının I qurultayı və Türküstan (Orta Asiya respublikaları); Şərq xalqlarının I qurultayı və İran; Şərq xalqlarının I qurultayı və Türkiyə; Şərq xalqlarının I qurultayı və Ərəb dünyası; Şərq xalqlarının I qurultayı və Çin, Koreya, Hindistan, Uzaq Şərq ölkələri; Şərq xalqlarının I qurultayı və İslam məsələləri. Şərqin müsəlman xalqlarına təklif edilən ideologiyalar; Şərq xalqlarının I qurultayı. Məqsədlər, perspektivlər və nəticələrdən ibarətdir .

İkinci istiqamətdə - "Şərq dünyası bu gün. Şərq ölkələrinin aktual məsələləri" istiqamətində isə tezis qəbulu üçün Şərq dünyası I və II dünya müharibələrindən sonra. Yeni yol axtarışında; SSRİ-nin dağılmasının dünya kommunist və sol hərəkatlara təsiri (Şərq ölkələri kontekstində); Beynəlxalq kommunist və sol hərəkatların müasir durumu. Şərqin sol yönümlü inqilabi təşkilatları; XX əsrin sonu-XXI əsrin əvvəllərində Şərq ölkələrində ideoloji və siyasi proseslər; Müsəlman Şərqində dövlətçilik modeli. Keçmiş SSRİ-nin müstəqilliyini bərpa etmiş respublikaları; Müsəlman Şərqində dövlətçilik modeli. Türkiyə Cümhuriyyəti; Müsəlman Şərqində dövlətçilik modeli. İran İslam Respublikası; Müsəlman Şərqində dövlətçilik modeli. Rusiya Federasiyası tərkibində müsəlman respublikaları; Ərəb ölkələri və narıncı inqilablar; Müasir dövrdə İslam və islami siyasi təfəkkür; Şərq ölkələrinin beynəlxalq təşkilatlarda təmsilçiliyi; İslam Əməkdaşlığı Təşkilatı və müasir Şərqin aktual problemləri; İslam ölkələri mühitində siyasi liderlik rəqabəti mövzuları müəyyən edilmişdi.

Konfrans iştirakçıları və dinləyiciləri tədbirdə çox maraqlı mövzularda məruzələr dinləmək imkanı əldə edəcəklər.

Bilavasitə Şərq xalqlarının I Bakı qurultayı ilə bağlı gözlənilən məruzələr sırasında "Şərq xalqlarının qurultayı və İslam Əməkdaşlıq Təşkilatının islahatı", "Şərq xalqlarının I qurultayı və Türkiyə", "Nəriman Nərimanov və Şərq xalqlarının I qurultayı", "Şərq xalqlarının I qurultayı və Rusiyanın müsəlman xalqları", "Şərq xalqlarının I qurultayı: N.Nərimanov və Türkiyə məsələsi", "I Şərq xalqları qurultayı türk tədqiqatçılarının gözü İlə", "Şərq qurultayının keçirilməsində Bakının önəmi", "Şərq xalqlarının

I qurultayı və Rusiyanın müsəlman xalqlarına verdiyi vədlərin iflası", "Şərq xalqlarının I qurultayında iştirak edən İran nümayəndə heyətinin tərkibi", "Şərq xalqlarının I qurultayı və S.C.Pişəvərinin azərbaycançılıq baxışlarının formalaşması" mövzularını qeyd etmək olar.

Konfransda Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi cinayətlər barədə məruzələr də dinləniləcək. Bu sırada "İslam Əməkdaşıq Təşkilatı Parlament İttifaqı və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi". "Erməni terrorçusunun etnik xüsusiyyətləri" kimi məruzələr olacaq.

Konfransda həmçinin "Milli tərbiyə sistemi azərbaycançılıq ideologiyasının əsas mənbələrindən biri kimi", "Çinin "bir kəmər-bir yol" layihəsində İran", "100 il ərzində Azərbaycanın Şərq dünyasında yeri", "Türkiyə Respublikasının yaranmasının Şərqdə əhəmiyyəti", "Birinci Dünya müharibəsindən sonra Cənubi Azərbaycanda ictimai-siyasi vəziyyət" "Ərəb ölkələri və narıncı inqilablar", XIX əsr Qərb səyyahlarının əsərlərində Osmanlı dövlətində mədəni həyatın təsviri", "Ərəb baharı"ndan sonra Yaxın Şərqdə məzhəbçilik və islama qarşı islamdan istifadə siyasəti", "XX əsrin əvvəllərində baş verən hərbi-siyasi hadisələrin Azərbaycan milli mətbuatında əksi", Cənubi azərbaycanlıların milli mübarizəsində onlayn media və sosial şəbəkələrin rolu" və onlarla digər mövzularda maraqlı məruzələr səsləndiriləcək.